# NAFTALAN



*Naftalan Şəhər İcra Hakimiyyətinin orqanı*

*www.naftalan-ih.gov.az*

№ 15-16 (431) • 30 iyul 2020-ci il • Qiyməti 90 qəpik


# Ali Baş Komandan Azərbaycanın haqlı mövqeyini bir daha dünyaya bəyan etdi



Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev 2020-ci il iyulun 6-da Azərbaycan Televiziyasına, İctimai Televiziyaya və "Xəzər" Televiziyasına geniş müsahibə vermişdir. Ölkə başçısı müsahibəsində qeyd etmişdir ki, Ermənistanın daxilində də demokratiyanın, insan haqlarının pozulması halları geniş vüsət alıb. Bunun əsas səbəbi erməni lobbisi və onun maliyyə vəsaitidir. Erməni lobbisi Ermənistanı bütün təşkilatlardan müdafiə edir. Bunu Avropa Şürası Parlament Assambleyasında Azərbaycan nümayəndə heyətinin başçısı kimi görmüşəm. O vaxt ermənipərəst deputatlar və əslən Avropa ölkələrindən olan varlı ermənilər bütün imkanlarından istifadə edərək Ermənistanı bütün tənqidlərdən qoruyurdu. Bizdə kifayət qədər siqnallar var ki, bəzi siyasi xadimlər, deputatlar, bəzi Avropa ölkələrinin hökümət üzvləri Ermənistana xüsusi münasibət bəsləyirlər. Elə adamlar var ki, Dağlıq Qarabağa yüzlərlə səfər edib. Bunun arxasında nələr dayanır, bunu hamı yaxşı bilir. Ermənistan müstəqil ölkə kimi formalaşandan dərhal sonra öz əsl xislətini göstərdi. Xocalı soyqırımını törədən faşistlər demokrat ola bilməzlər. Başqasının torpağına göz dikən, bir milyon insanı evsiz-eşiksiz qoyan ölkə demokrat ola bilməz.

Ancaq Azərbaycanın məqsədyönlü fəaliyyəti ona gətirib çıxarıb ki, Ermənistanın üzərində mövcud olan "çətir" artıq deşilibdir. Biz onların əsl mahiyyətini üzə çıxarırıq, onların faşist mahiyyətini ifşa edirik. Faşist Njdeyə abidə ucaldan və bu abidəni müdafiə edən icraçı faşistdir. Bunu biz deyirik və artıq dünya miqyasında bu fakt haqqında kifayət qədər məlumat var. Mən bu məsələni qaldırdım və buna geniş beynəlxalq dəstək təmin edildi. İndi artıq hər kəs bilir ki, Njde faşist olubdur. Bu faşist ermənilərin qəhrəmanlıq simvoludur.

Ermənistanın yeni rəhbərliyi keçmiş hakimiyyətin bütün çirkin əməllərini üzə çıxarır. Açıq etiraf edilir ki, 1998-2018-ci illərdə Ermənistana quldurlar rəhbərlik ediblər. Onlar özləri bu cinayətkarları, rüşvətxorları ifşa etməyə başlayıblar. Son iki ildə də rüşvətxorları, cinayətkarları diktator əvəzlədi. İndi də insanların haqları kobudcasına pozulur, jurnalistlər həbs edilir, hətta bir jurnalist bu haqsızlığa dözməyərək həbsxanada aclıq elan etmiş və aclıqdan vəfat etmişdir. Ancaq beynəlxalq təşkilatlar buna reaksiya vermir. ATƏT-in media üzrə nümayəndəsi, Avropa Şurası və digər insan hüqüqlarının müdafiəçisi olan beynəlxalq təşkilatlar Ermənistandakı bu pozuntuları tənqid etmirlər. Artıq son vaxtlar bütün aparıcı beynəlxalq təşkilatların sənədlərində Azərbaycanın ərazi bütövlüyü birmənalı şəkildə dəstəklənir və işğal haqqında kifayət qədər dolğun məlumat var. Lakin beynəlxalq təşkilatlar Azərbaycan haqqında iftiralar uydurmaq üçün dəridən-qabıqdan çıxır, şişirdilmiş rəqəmlər və faktlar yazmağı özlərinə borc bilirlər. Heç kimdə şübhə yoxdur ki, bu qurumlar tərəfindən Azərbaycan haqqında verilən qərarların əksəriyyəti siyasi xarakter daşıyır və siyasi sifarişdir. Azərbaycan bu gün beynəlxalq siyasətin zirvəsindədir, lakin bizə şər atanlar böhran içərisindədir.

Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə bağlı mövqeyi birmənalı olaraq dəyişməz qalır. Heç vaxt Azərbaycanın torpağında ikinci erməni dövlətinin yaradılmasına icazə verilməyəcək, işğal edilmiş torpaqlar azad ediləcək və Azərbaycanlılar öz doğma torpaqlarına qayıdacaqdır. Azərbaycanın bu mövqeyi prinsipial mövqedir və dünya birliyi də bu mövqeyi dəstəkləyir. Ölkəmizin ərazi bütövlüyü ilə əlaqədar BMT, BMT Təhlükəsizlik Şurası Baş Assambleyası, Qoşulmama hərəkatı, ATƏT, İslam Əməkdaşlıq Təşkilatı, NATO və digər beynəlxalq təşkilatlar kifayət qədər qətnamələr qəbul ediblər. Bu hüquqi müstəvidir, Azərbaycanın mövqeyini möhkəmləndirən bir əyani sübutdur. Odur ki, Azərbaycan tərəfi danışıqlar prosesində heç bir dəyişiklik aparmadan öz mövqeyini tam əminliklə davam etdirəcəkdir.

ATƏT-in Minsk qrupu Ermənistanın baş nazirinin "Qarabağ Ermənistandır" deməsinə cavab vermir, heç bir bəyanət qəbul etmir. Buna Azərbaycan Respublikasının Prezidenti ən yüksək görüşlərdə cavab verir. Ermənistan tərəfi son iki ildir ki, danışıqlar formatını dəyişmək istəyir, bəyan edir ki, Azərbaycan qondarma Dağlıq Qarabağın saxta dırnaqarası liderləri ilə danışıqlar aparmalıdır. Qondarma Dağlıq Qarabağ respublikasının saxta seçkiləri nəticəsində seçilmiş saxta prezidenti Şuşada andiçmə mərasimi keçirir. Bura ATƏT-in Minsk qrupu və digər beynəlxalq təşkilatlar tərəfin- dən heç bir reaksiya verilmir, Şuşada toy-bayram keçirilir. Yenə də beynəlxalq təşkilatlar Ermənistanın bu təxribatının qarşısının alınması üçün heç bir bəyanət qəbul etmir, susmağa üstünlük verirlər.

Bütün bu münaqişədə ATƏT-in Minsk qrupunun bir bəyanatı var - hərb variantı mümkün deyil. Lakin BMT-nin Nizamnaməsində ölkələrin özünümüdafiə hüququ var. Ermənistan Azərbaycanın işğal olunmuş torpaqlarında qanunsuz məskunlaşma aparır, ATƏT-in faktaraşdırıcı missiyası isə 10 ildən artıqdır ki, heç bir araşdırma aparmır. Azərbaycanın yaşayış yerlərinin adları dəyişdirilir, işğal edilmiş torpaqlarda kilsələr tikilir. Yenə ermənilər deyəcəklər ki, bura da erməni torpağıdır. Amma nə Minsk qrupu, nə də ki digər beynəlxalq təşkilatlar heç bir bəyənat vermək istəmir. Faktlar isə kifayət qədərdir. Suriyadan və digər ölkələrdən ermənilərin işğal olunmuş ərazilərə köçürülməsi davam edir.

Bu gün ATƏT-in Minsk qrupu tərəfindən danışıqlar prosesi Azərbaycan və Ermənistan xarici işlər nazirlərinin videokonfransları vasitəsi ilə davam etdirilir. Bu sadəcə olaraq Minsk qrupunun fəaliyyətdə olduğunu göstərir. Azərbaycan öz mövqeyində heç bir dəyişiklik aparmadan dayanır, haqq-ədalətin tərəfimizdə olduğunu beynəlxalq arenada da göstərib, döyüş meydanında da göstərib, Aprel döyüşləri də heç kimin yadından çıxmayıb. Buna görə də beynəlxalq təşkilatlara bir daha səslənirik: "Azərbaycan torpaqlarının işğal altında saxlanılmasına son qoyulsun!"


**Möhübbət BƏDƏLOV,**
**Naftalan şəhər İcra Hakimiyyəti başçısı aparatında ərazi idarəetmə və yerli özünüidarəetmə orqanları ilə işin aparıcısı**


# Azərbaycana qarşı xain düşmənin təxribat cəhdi

İyulun 12-də Ermənistan tərəfindən qəfildən baş vermiş xəyanətkar hadisə Azərbaycan ictimaiyyəti tərəfindən hiddətlə qarşılanmış, sosial şəbəkələrdə hərbi əməliyyatlara başlamaq, sıravi vətəndaşların toplanaraq cəbhə bölgəsinə getmək, silaha sarılaraq torpaqlarımızı işğaldan azad etmək kimi çağırışlar səsləndirmişlər. Bu, bir tərəfdən də Azərbaycan cəmiyyətinə vətənpərvərlik hissinin yüksək səviyyədə olduğunu nümayiş etdirmişdir. Bu gün Azərbaycan güclü orduya malikdir və Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin əmri ilə qarşısına qoyulan istənilən vəzifəni yerinə yetirməyə, o cümlədən torpaqlarımızı işğaldan azad etməyə hazırdır və buna qadirdir. Qürur doğuran haldır ki, hər bir Azərbaycan vətəndaşı bu gün həmrəydir. Qarabağ Azərbaycanın tarixi torpağıdır, bütün torpaqlarımız işğaldan azad edilməlidir. Beynəlxalq ictimaiyyət də cəmiyyətimizdəki bu yekdil fikri görməlidir. Ən əsası Azərbaycan xalqının iradəsidir.

Erməni silahlı qüvvələrinin ölkəmizə qarşı təxribat törətmək cəhdinın qarşısı alındı. Düşmənin belə təxribat xarakterli hücumları yenilik deyil və gözləniləndir. Çünki son bir neçə ildə iqtisadi inkişaf göstəricilərinə görə dünyada lider mövqelərə çıxan Azərbaycan bir çox sahələrdə əldə etdiyi uğurlarla seçilən dövlətlər cərgəsində mövqelərini daha da möhkəmləndirməkdədir. Ümummilli lider Heydər Əliyevin siyasi kursunu bütün istiqamətlərdə uğurla davam etdirən ölkə Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı möhtərəm cənab İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan sürətlə inkişaf edir. İstər iqtisadi göstəricilərinə görə, istərsə də diplomatik uğurlarına görə Ermənistanı dəfələrlə üstələyən Azərbaycan pandemiya şəraitinin mövcudluğuna baxmayaraq son vaxtlar beynəlxalq mövqelərini də daha da gücləndirməkdədir. Ölkəmizin sədrlik etdiyi Qoşulmama Hərəkatının Zirvə toplantısının uğurla nəticələnməsi, ardınca Azərbaycanın təşəbbüsü ilə BMT Baş Assambleyasının xüsusi iclasının keçirilməsi barədə qərar qəbul edilməsi erməni lobbisini, xarici ermənipərəst dairələri, Azərbaycanı böyük dünya dövləti görmək istəməyən xarici qüvvələri ciddi narahat edən hadisələrdir. Azərbaycan qeyd olunan beynəlxalq müstəvilərdə Azərbaycanın bir nömrəli problemini - Dağlıq Qarabağ münaqişəsi ilə bağlı həqiqətləri gündəmə gətirməkdədir. Artıq həm siyasi, həm də hərbi sahədə ölkəmizdən çox geridə qalan Ermənistan dövləti uçuruma doğru gedir. Əlbəttə, səriştəsiz idarəçilik və səriştəsiz baş naziri olan ölkə məhvə məhkumdur. Ölkəmiz hər sahədə günü-gündən inkişaf edir. Dünya dövlətləri ölkəmizin mövqeyini dəstəkləyir. Bu da bədnam qonşularımızı qıcıqlandırır, dövlətimizə qarşı məkrli planlar hazırlayırlar. Amma bizim güclü ordumuz hər cür təxribatın qarşısını almaq gücündədir. Buna 12 iyul döyüşlərində də canlı şahid olduq. Doğrudur, qəhrəmanlar-şəhidlər verdik. Amma bir qarış vətən torpağını simasız düşmənə vermədik. Xalq Ali Baş Komandanın yanındadır, onu hər zaman dəstəkləyir. Ordumuza güvən sonsuzdur. Bizım xalq vətənpərvər xalqdır.

"Biz böyük qələbə qazanmışıq, xalq da bunu dəstəklədi. Xalq qələbəni qeyd etmək, şəhidlərimizin ruhunu yad etmək üçün Şəhidlər xiyabanına gəldi. Hansısa yaramaz ünsürlər burada iğtişaş törədəcək? Bu olmayacaq. Onların fikri 1990-cı illərin əvvəllərinə getməsin". Bu fikri cənab Prezident Nazirlər Kabinetinin 2020-ci ilin birinci yarısının sosial-iqtisadl inkışafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasda deyib.

Möhtərəm Prezidentimiz bildirib ki, Azərbaycanın o vaxtkı hakimiyyətinin bədbəxtliyi ondan ibarət idi ki, Xalq Cəbhəsi kimi çirkin, mənfur, qorxaq, satqın fərarilərdən qaçdı: "O fərarilər ki , ondan bir il sonra hakimiyyəti qoyub qaçdılar. Bax, bu binada otururdular. Bu binanı da zibilləmişdilər. Prezidentin kabinetində hər gün kolbasa, araq yeyib-içirdilər, hər gün, gecə səhərə qədər. Sonra da o vaxtkı prezident saat 12-də yuxudan oyanırdı. Saat 5-də də yenidən kolbasa, araq. Keçmiş müdafiə naziri, keçmiş daxili işlər naziri, keçmiş dövlət katibi, keçmiş prezident bu binanı murdarlamışdılar. Belə bir çirkin dəstə gəlib o vaxt hakimiyyəti hay-küylə yıxdı. Onların fikri ora getməsin. Bunların dərsini vermişik, verəcəyik. Heç kim məsuliyyətdən boyun qaçıra bilməyəcək".

Cənab İlham Əliyev vurğuladı ki, ona verilən məlumata görə, dünən bəzi muxalif qurumlar, o cümlədən Azərbaycan Xalq Cəbhəsinin nümayəndələri o kütlənin içinə girərək orada insanları qanunsuz əməllərə sövq etməyə çalışıblar: "Qanunu pozanların arasında onlar da var, onlar indi müəyyən olunublar. Mən bir daha xəbərdarlıq edirəm, odla oynamasınlar. Bu məsələ milli məsələdir. Heç nəyə baxmayacağıq, kim nə dedi, hansı şura, hansı Avropa Şurası, hansı təşkilat. Bizim son günlərdə sərgilədiyimiz mövqe - beynəlxalq təşkilatlarda bizim əleyhimizə çirkin kampaniya aparanlara qarşı tutduğumuz mövqe artıq nəticə verir. Anti-Azərbaycan qüvvələri harada mümkünsə, onları bloklayacağıq. Onların namizədlərinin meydan oxumasına, Azərbaycana çirkab yaxmasına imkan verməyəcəyik. Heç kim bizə göstəriş verə bilməz. Dünənki hadisə hamımız üçün bir siqnal olmalıdır. Yadınıza salın, o vaxt torpaqlar əldən gedirdi, burada parlamentin qarşısında mitinqlər təşkil edilirdi. Minlərlə insan yığışırdı, öz hiddətini ifadə edirdi. Ancaq nəticə etibarilə nə oldu? Torpaqlar əldən getdi. Indi mitinq vaxtıdırmı? Biz şəhidlər veririk, igidlər itiririk, generallar itiririk. Bu çirkin ünsürlər indi burada vəziyyəti gərginləşdirmək istəyir. Bütün aidiyyəti qurumlara deyirəm. Əgər dünənki hadisələrdə onların əli varsa, bizim qətiyyətimizi görəcəklər. Onlar ermənilərdən də pisdirlər. Erməni açıq düşməndir. Oturub orada, bunlara görə torpaqlarımızı işğal edib. Bu Xalq Cəbhəsinin fərarilərinə görə bu gün o torpaqlardadır. Amma bu, oturub bizim içimizdə. Xaricdən pul alır, təlimat alır, mühiti zəhərləyir, bizim təmiz havamızı üfunət iyi ilə çirkləndirir və belə məqamlarda dövlətin yanında yox, düşmənin yanındadır. Mən demişəm, hüquq-mühafizə orqanları onların bu günlər ərzində sosial şəbəkələrdə çıxışlarını təhlil etsinlər. Əgər orada cinayət tərkibi varsa. onların hamısı cinayət məsuliyyətinə cəlb edilməlidir. Döyüşlər getdiyi vaxtda onlar ordumuza şər atırlar, yalanlar uydururlar. Deyirlər ki, biz o yeri vermişik, biz oraya getməməliydik, biz buraya getməməliydik. Sən kimsən? Sən bizim ordumuza göstəriş, məsləhət verirsən. Ay başı boş, ay satqın. Bunlardır. bunlar idi Azərbaycan dövlətçiliyini yıxmaq istəyənlər. Biz bunların nazı iləmi oynayacağıq? Onlara elə dərs veriləcək ki, bu son dərs olacaqdır.

Ali Baş Komandan bildirib ki, kim yenidən orduda xidmət etmək istəyirsə, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətində qeydiyyatdan keçə bilər: "Gənclərimizin vətənpərvərliyini, coşqusunu yüksək qiymətləndiririk. Azərbaycanın ehtiyatda olan hərbçiləri də var. Zərurət olacağı təqdirdə, onlar da öz yaşadıqları ünvanlar üzrə qeydiyyata alınacaq. Burada hərbi təlim, ibtidai, hərbi bacarıqlara malik olmaq əsas şərtdir. Gənclərimizin coşqusu yüksək qiymətləndirilir. Ali Baş Komandan Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti qarşısında vəzifə qoyub. Zərurət olduğu təqdirdə həmin gənclər lazımı istiqamətə yönəldiləcəklər".


**Möhübbət BƏDƏLOV,**
**Naftalan şəhər İcra Hakimiyyəti başçısı aparatında ərazi idarəetmə və yerli özünüidarəetmə orqanları ilə işin aparıcısı**

# Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan hərbi bölmələrinin növbəti təxribat cəhdləri qətiyyətlə alındı



İyulun 12-də Ermənistan silahlı qüvvələrinin bölmələri növbəti dəfə təxribata əl ataraq Azərbaycan-Ermənistan dövlət sərhədinin Tovuz rayonu istiqamətində mövqelərimizi ələ keçirtməyə, artilleriya atəşindən istifadə edərək hücuma keçməyə cəhd göstərib, dövlət sərhəddini pozmağa çalışıblar. Azərbaycan Ordusunun həyata keçirdiyi əks-tədbirlər nəticəsində düşmən geri otuzdurulub, onun canlı qüvvəsinə böyük itkilər və hərbi texnikasına ciddi zərər yetirilib. Azərbaycan Ordusunun əks-tədbirləri adekvat xarakter daşıyıb, Ermənistanın alçaq təxribatına qətiyyətli cavab verilib.

Ermənistan hərbi bölmələrinin Azərbaycan-Ermənistan sərhədində növbəti təxribatı Ermənistan hakimiyyətinin həm beynəlxalq ictimaiyyətin diqqətini aktual məsələlərdən yayındıraraq fərqli istiqamətə yönəltmək, həm də ölkə daxilində müşahidə olunan ciddi gərginliyi azaltmaq məqsədi güdür.

Azərbaycanın beynəlxalq mövqelərinin daha da güclənməsi, ölkəmizin diplomatik uğurları, dövlət başçımızın irəli sürdüyü təşəbbüslərin beynəlxalq arenada əsaslı şəkildə dəstəklənməsi, o cümlədən ölkəmizin sədrlik etdiyi Qoşulmama Hərəkatının Zirvə toplantısının geniş rezonans doğurması, Azərbaycanın təşəbbüsü ilə BMT Baş Assambleyasının Xüsusi Sessiyasının keçirilməsi barədə qərar qəbul edilməsi erməni lobbisini, xarici ermənipərəst dairələri, Azərbaycanı istəməyən xarici qüvvələri ciddi narahat edir.

Prezident cənab İlham Əliyevin Soçidə "Valday" Beynəlxalq Diskussiya Klubunun XVI illik iclasının plenar sessiyasında, Aşqabadda MDB Dövlət Başçıları Şurasının məhdud tərkibdə iclasında, Münhen Təhlükəsizlik Konfransında Ermənistanın işğalçılıq siyasətini və faşist simasını ifşa etməsi, dünyanın aparıcı beynəlxalq qurumlarının Ermənistan-Azərbaycan-Dağlıq Qarabağ münaqişəsi ilə bağlı ədalətli qərarlar qəbul etməsi xarici ermənipərəst dairələri və Ermənistan hakimiyyətini ciddi problemlər qarşısında qoyub.

Bu gün Ermənistanda əhalinin hakimiyyətə etimadının itməsi ilə əlaqədar dərin böhran yaşanılır. Ermənistanın təcrübəsiz, populist baş naziri Nikol Paşinyan faktiki olaraq ölkədə diktatura qurmuşdur. Bütün siyasi rəqiblərini təqib edir, həbs edir. Ciddi sosial-iqtisadi problemlər, korrupsiya, koronavirusla mübarizə sahsində saysiz-hesabsiz problemlər, insan hüquq və azadlıqlarının boğulması, siyasi opponentlərə, azad sözə qarşı repressiyaların tətbiq edilməsi Paşinyan hakimiyyətini çox mürəkkəb duruma salıb. Azərbaycanla sərhəddə təxribat Paşinyan hakimiyyətinə xarici düşmən mövzusunu qabartmağa və öz səriştəsiz idarəçiliyinin yaratdığı problemləri gündəmdən çıxartmağa hesablanıb. Hazırda Ermənistanda vəziyyət olduqca mürəkkəbdir, hakimiyyətə qarşı müxalifətin vahid cəbhədə birləşməsi prosesi gedir. Paşinyanın belə təxribatlarla problemi aradan qaldırmaq cəhdlərinin hər hansı nəticə verəcəyini düşünmək üçün heç bir əsas yoxdur. Ermənistan tərəfindən sərhəddə törədilmiş təxribat onu göstərir ki, rəsmi Yerevan Ermənistan-Azərbaycan münaqişəsinin danışıqlar yolu ilə həllində maraqlı deyil və məqsədi Azərbaycan ərazilərini işğalda saxlamaqdan ibarətdir. Paşinyan hakimiyyəti itirməkdən qorxur. Yeganə məqsədi hansı vasitə ilə olursa olsun hakimiyyətini qorumaqdır. O xarici siyasətdə də uğursuzluğa düçar olmuşdur. Bütün dünya ictimaiyyəti cari ilin mart ayında Ermənistanın Azərbaycanın işğal olunmuş ərazilərində təşkil etdiyi "seçki" şousunu qəbul etməyərək Azərbaycanın ərazi bütövlüyünə dəstəyini təsdiq etdi.

Növbəti dəfə uğursuzluqla üzləşən Ermənistan hakimiyyəti indi də məsələnin mahiyyətini gizlətməyə, yalan məlumatlarla beynəlxalq və yerli ictimaiyyəti çaşdırmağa çalışır. Ermənistan hakimiyyətinin uydurmalar, ölənlər haqqında məlumatları gizlətməsi ölkə ictimaiyyətində ciddi narazılıq doğurub və Ermənistan etiraz aksiyaları başlanıb. Ermənistan hakimiyyətinin guya Azərbaycan hərbi bölmələrinin mövqeyini ələ keçirməsi, yeni yüksəkliklər əldə etməsi barədə iddiaları yalan və dezinformasiyadan başqa bir şey deyil. Hətta bu ölkənin ictimaiyyəti, fəal sosial şəbəkə istifadəçiləri belə bu kimi iddiaları ironiya ilə qarşılayırlar. Azərbaycan Respublikası Prezidenti möhtərəm cənab İlham Əliyevin dünyanın 130-dan çox ölkəsi tərəfindən BMT Baş Assambleyasının COVİD-19 pandemiyasına qarşı onlayn videokonfrans vasitəsilə dövlət və hökumət başçıları səviyyəsində Xüsusi Sessiyasının keçirilməsi təşəbbüsünün əleyhinə çıxan yeganə ölkə Ermənistan olmuşdur. Bu bir daha həm mənəvi cılızlığı, həm də Ermənistanda Azərbaycana fobiyanın hansı həddə çatdığını göstərir.

İyulun 12-də baş vermiş hadisə Azərbaycan ictimaiyyəti tərəfindən hiddətlə qarşılandı. Sosial şəbəkələrdə hərbi əməliyyatlara başlamaq, sıravi vətəndaşların toplanaraq cəbhə bölgəsinə getmək, silaha sarılaraq torpaqlarımızı işğaldan azad etmək kimi çağırışları səsləndi. Bu, bir tərəfdən Azərbaycan cəmiyyətinə vətənpərvərlik hissinin yüksək səviyyədə olduğunu nümayiş etdirdi. Lakin indi 1990-cı illərin əvvəlləri deyil ki, nizami ordu olmadığına görə, vətəndaşlar öz gücünə torpaqlarımızı müdafiə etmək məcburiyyətində qalsınlar. Arzuolunmaz xaotik təşəbbüslər yalnız düşmənlərimizi sevindirə, ölkəmiz, silahlı qüvvələrimiz haqqında uydurmaları daha da genişləndirməyə imkan yarada bilər. Buna görə də bəzi sosial şəbəkə istifadəçilərinin silaha sarılmaq və cəbhə bölgəsinə getmək çağırışları, ayrı-ayrı şəxslərin cəbhə xəttinə yürüş təşkil etmək cəhdləri yolverilməz və qəbulolunmazdır.

Azərbaycanın Silahlı Qüvvələri operativ vəziyyətə nəzarət edir. Ermənistanın təxribatlarına sərt formada cavab verilir və veriləcəkdir. Bu gün Azərbaycan güclü orduya malikdir və Azərbaycan Ordusu Ali Baş Komandanın əmri ilə qarşısına qoyulan istənilən vəzifəni yerinə yetirməyə, o cümlədən torpaqlarımızı işğaldan azad etməyə hazırdır və buna qadirdir.

Hazırda Ermənistanın bu təxribatı dünya ictimaiyyəti tərəfindən birmənalı şəkildə pislənir və Azərbaycana qarşı işğalçılıq siyasəti və sərhəddə törətdiyi təxribat əməllərinin faşist ideologiyasına söykəndiyini əyani şəkildə sübut edir.

**Münasib NURİYEV,**
**Qarabağ Müharibəsi Əlilləri, Veteranları və Şəhid Ailələri İctimai Birliyinin Naftalan şəhər şöbəsinin sədri**

**Bildiyiniz kimi, iyulun 12-də erməni silahlı qüvvələri Azərbaycan mövqelərinə artilleriya atəşi ilə zərbə endirmişlər və bu gözlənilməz zərbə nəticəsində hərbçilərimiz həlak olub, yaralanıb.**

**Azərbaycan Silahlı Qüvvələrinə göstəriş verdim ki, hərbçilərimizin intiqamı alınmalıdır, onların qanı yerdə qalmamalıdır və düşmənə elə bir zərbə endirilməlidir ki, onu uzun illər bundan sonra yaddan çıxarmasın.**

**Görülmüş operativ tədbirlər nəticəsində Ermənistan ordusu layiqli cavabını aldı. Düşmənə sarsıdıcı zərbələr endirildi və bu zərbələr əminəm ki, onlara yaxşı dərs oldu.**

*Prezident İlham Əliyevin Nazirlər Kabinetinin iyulun 15-də keçirilən 2020-ci ilin birinci yarısının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasındakı nitqindən*

# Milli Məclisin deputatı Anar Məmmədov: Ermənistanın bu addımı beynəlxalq hüquq normalarının pozulması və Azərbaycana qarşı təcavüzdür



Koronavirus pandemiyası Ermənistandakı vəziyyəti daha da ağırlaşdırıb. İşğalçı ölkədə son dövrlər bir neçə yüksək vəzifəli şəxslərin ard-arda istefa verməsi hökumətdə ciddi qarşıdurmanın olduğunu və ölkənin siyasi böhrana sürükləndiyini göstərir. Paşinyan isə bütün bunları yaxşı bilir və ölkədəki böhranlı vəziyyətdən diqqəti yaynıdrmaq üçün cəbhədə təxribata əl atıb. Ermənistan hərbi bölmələrinin Azərbaycan-Ermənistan sərhədində növbəti təxribatı Ermənistan hakimiyyətinin həm beynəlxalq ictimaiyyətin diqqətini aktual məsələlərdən yayındıraraq fərqli istiqamətə yönəltmək, həm də ölkə daxilində müşahidə olunan ciddi gərginliyi azaltmaq məqsədi güdür.

İyulun 12-də Ermənistan silahlı qüvvələrinin atəşkəs rejimini kobud şəkildə pozaraq artilleriya qurğularından istifadə etməklə dövlət sərhədinin Tovuz rayonu istiqamətində Azərbaycan silahlı qüvvələrinin mövqelərinə hücum etməsi təcavüzdür, güc tətbiq etmək aktıdır və növbəti təxribatdır. Lakin qürurverici haldır ki, rəşadətli Azərbaycan Ordusu təxribatın qarşısını böyük cəsarətlə alıb və ermənilər çoxsaylı itki veriblər. İşğalçılar bu dəfə də istəyinə nail ola bilməyib və layiqli cavabını alaraq geri oturdulub. Mənfur düşmən yenə də öz çirkin xislətinə sadıq qalaraq sərhəddə süni gərginlik yaradaraq yenə də qeyri - konstruktivlikdən əl çəkməyəcəyini, yeni ərazilər əldə etmək cəhdinin növbəti təxribatı olduğunu göstərmiş oldu. Reallıq isə ondan ibarətdir ki, Azərbaycan Ordusu ən şərəfli missiyasının, torpaqlarımızın işğaldan azad edilməsi ilə bağlı müqəddəs vəzifəsinin öhdəsindən gəlməyə hər an hazır olduğunu, düşməndən dəfələrlə üstün olduğunu bir daha bütün dünyaya sübut etdi.

Ermənilər özləri sosial şəbəkələrdə yazırlar ki, 30-dan çox itki veriblər. Onlar arasında zabitlər də var. Ermənistan hakimiyyəti əvvəllər olduğu kimi bu dəfə də ölən və yaralanan hərbçilərin sayını gizlədir, real rəqəmləri açıqlamır. İşğalçı ölkənin baş naziri Nikol Paşinyan bununla sıravi ermənilərin qəzəbindən yayınmağa çalışır. Əgər hökumət itkilərin real sayını açıqlasa onsuz da Paşinyandan bezmiş ermənilər ayağa qalxacaqlar və bunun səbəbini soruşacaqlar. Ona görə də erməni tərəfi itkilərini gizlədir. Bəzi məlumatlara görə, ermənilərin bir neçəsinin meyiti neytral ərazidə qalıb.

Ermənistanın dövlət sərhədində iriçaplı artilleriya qurğularından istifadə edərək hücuma keçməyə cəhd göstərməsi bu ölkənin təcavüzkar olduğunu bir daha təsdiqləyir. Ermənistan bu dəfə təxribatı cəbhənin Dağlıq Qarabağ istiqamətində deyil iki ölkənin dövlət sərhədində törədib. Bununla da erməni tərəfi beynəlxalq hüquq normalarını kobudcasına pozaraq ölkəmizə qarşı növbəti təcavüzü həyata keçirtmək istəyib. Belə olan təqdirdə isə beynəlxalq təşkilatlar Ermənistanın bu təcavüzkar addımına, başqa ölkənin sərhədində güc tətbiq etməsi aktına dərhal münasibət bildirməlidirlər, bunu açıq formada qınamalıdırlar və təcavüzkarı dayandırmaq üçün əməli addımlar atmalıdırlar. Eyni zamanda, dünyada sülh, təhlükəsizlik və əməkdaşlığa cavabdeh olan beynəlxalq qurumlar - BMT, ATƏT, Avropa İtitfaqı, Avropa Şurası, NATO Ermənistanın bu addımına göz yummamalıdırlar, ermənilərin artilleriya qurğularından istifadə etməklə törətdiyi təxribatı pisləməlidirlər və rəsmi Yerevanı dayandırmaq üçün dərhal hərəkətə keçməlidirlər. Çünki Ermənistan yalnız Azərbaycan üçün deyil, bütün dünya üçün ciddi təhlükə mənbəyinə çevrilməkdədir.

# İcra Hakimiyyətinin başçısı və Millət vəkili vətəndaşları onlayn qəbul etdi



Naftalan Şəhər İcra Hakimiyyətinin başçısı Vüqar Novruzov və Millət vəkili Anar Məmmədov onlayn qaydada vətəndaşları qəbul edib.

Hər bir vətəndaşın müraciəti ayrı-ayrılıqda diqqətlə dinlənilib. Dinlənilmiş bütün müraciətlər qanunamüvafiq qaydada həll olunması məqsədi ilə qeydiyyata alınaraq nəzarətə götürülüb. Həlli vacib və mümkün olan problemlərin dərhal, digərlərinin qanuna uyğun formada araşdırılaraq qısa zamanda nəticəsi barədə onlara məlumat veriləcəyi bildirildi. Müraciətlər işlə təmin olunma, şəhər sakinləri və turistlər üçün velosiped yolunun çəkilməsi, şəhər stadionun təmiri, eləcə də şəhid ailələri və Qarabağ müharibəsi əlilləri üçün ev tikintisi, şəhər ərazisində pandusların quraşdırılması, dam örtükləri və novalçaların təmiri və s. sahədə görülən işlərlə bağlı minnətdarlıq olub.

Həmçinin onlayn qəbul zamanı pandemiya vəziyyəti ilə bağlı mövcud məsələlər müzakirə edilib və vətəndaşlara karantin rejiminin şərtllərinə əməl etmələri tövsiyə olunub.

Qəbula gələnlər belə çətin vaxtda onların müraciətlərinin dinlənilməsindən razılıqlarını ifadə edərək ölkədə, o cümlədən Naftalan şəhərində həyata keçirilən müxtəlif sosial layihələrə, abadlıq-quruculuq işlərinə görə möhtərəm cənab Prezident İlham Əliyevə və Birinci Vitse-Prezident hörmətli Mehriban xanım Əliyevaya öz dərin minnətdarlıqlarını bildiriblər.

**Aynurə NOVRUZOVA,**
**Naftalan şəhər İcra Hakimiyyəti başçısı aparatında sənədlərlə və vətəndaşların müraciətləri ilə işin aparıcısı**

# Naftalanda çoxmərtəbəli yaşayış binalarının dam örtüklərində cari təmir işləri aparılır

Naftalan şəhəri ərazisində həyata keçirilən genişmiqyaslı abadlıq-quruculuq işlərinin tərkib hissəsi kimi, şəhərdəki çoxmərtəbəli yaşayış binalarının dam örtüklərində cari təmir işlərinə başlanılıb.

Şəhər sakinlərinin müraciətləri əsasında, intensiv yağışlar yağan zaman su sızmalarının qarşısının alınması məqsədilə çoxmənzilli yaşayış binalarının dam örtüklərində zəruri tədbirlər həyata keçirilib. Belə ki, xüsusi qaldırıcı texnika cəlb olunmaqla çoxmərtəbəli yaşayış binalarının dam örtükləri və yağış suları axıdılan novalçalar təmizlənib, həmçinin sıradan çıxmış novalçalar yenisi ilə əvəz olunub.

Həmçinin şəhərdə 3 doqquz mərtəbəli yaşayış binasının fasad örtüyünün şüşə üzlükləri yuyularaq təmizlənmişdir.

Görülən işləri razılıq hissi ilə qarşılayan sakinlər son illər respublikamızda, eləcə də Naftalan şəhərində aparılan abadlıq və quruculuq işlərinə görə ölkə rəhbərliyinə minnətdarlıqlarını bildiriblər.

**REDAKTORDAN**

# Bakı Tekstil Fabrikindən naftalanlılara qayğı - fabrikin istehsal etdiyi tibbi maskalar sakinlərə paylanılıb



Koronavirus (COVID-19) pandemiyasının yayılmasını nəzərə alaraq infeksiyaya qarşı genişmiqyaslı mübarizə tədbirlərinə dəstək verilməsi və sosial həmrəylik nümayiş etdirilməsi məqsədilə Naftalan Şəhər İcra Hakimiyyətinin təşəbbüsünə Azərbaycanda Qadın Sahibkarlığının İnkişafı Assosiasiyasının sədri, Səkinə Babayevanın rəhbəri olduğu Bakı Tekstil Fabriki də qoşulub.

Belə ki, fabrikin istehsal etdiyi 2000-dən artıq tibbi maska Naftalan şəhər könüllüləri tərəfindən şəhərin mərkəzi küçələrində, əhalinin sıx toplandığı digər ictimai məkanlarda, evlərdə, eləcə də şəhərin Qaşaltı Qaraqoyunlu və Qasımbəyli kəndlərində sakinlərə paylanılıb.

Həmçinin könüllülər vətəndaşları bir daha karantin şərtlərinə və gigiyenik qaydalara riayət etməyə, tibbi maska və dezinfeksiyaedici mayelərdən istifadə etməyə, əlləri müntəzəm şəkildə yumağa dəvət edərək bu infeksiyaya birlikdə qalib gəlməyə çağırıb.

**Ülfət ƏLİYEV,**
**Naftalan şəhər İcra Hakimiyyəti başçısı aparatında informasiya təminatı və təhlil sektorunun müdiri**

# Şəhər İcra Hakimiyyətinin başçısı vətəndaşlarla növbəti onlayn qəbul keçirib



İyulun 27-də Naftalan Şəhər İcra Hakimiyyətinin başçısı Vüqar Novruzov müracət edən vətəndaşlarla növbəti onlayn qəbul keçirib.

Onlayn qəbulda səslənən müraciətlər dinlənildikdən sonra bir neçə vətəndaşa müvafiq izahat verilib, bəzi qaldırılan məsələlərin həlli aidiyyəti qurum və təşkilat rəhbərlərinə tapşırılıb və onların həlli nəzarətə götürülüb. Həlli vacib və mümkün olan problemlər müzakirə zamanı həllini tapıb.

Ümumilikdə 25-dən çox vətəndaşın müraciəti dinlənilib. Müraciətlərin əsas məzmunu işlə təmin olunma, torpaq sahəsi əldə edilməsi və sair məsələrlə bağlı olub

Qəbulda iştirak edənlərə "Made in Azerbaijan" brendi altında Bakı Tekstil Fabrikinin istehsalı olan tibbi maskalar verilərək onlara karantin rejiminin tələblərinə əməl etmələri tövsiyə edilib.

Qeyd edək ki, bir müddət öncə fabrikin istehsal etdiyi 2000-dən artıq tibbi maska Naftalan şəhər könüllüləri tərəfindən şəhər əhalisinə paylanılmışdır.

Qəbula gələnlər onların şikayət və təkliflərinin dinlənilməsindən məmnunluqlarını ifadə edərək ölkədə, o cümlədən Naftalanda həyata keçirilən müxtəlif sosial layihələrə, abadlıq-quruculuq işlərinə görə möhtərəm cənab Prezident İlham Əliyevə və Birinci Vitse-Prezident hörmətli Mehriban xanım Əliyevaya sonsuz minnətdarlıqlarını bildiriblər.

**Aynurə NOVRUZOVA,**
**Naftalan şəhər İcra Hakimiyyəti başçısı aparatında sənədlərlə və vətəndaşların müraciətləri ilə işin aparıcısı**

# Şəhər İcra Hakimiyyətinin başçısı karantin rejiminin tələblərinin icrası vəziyyəti ilə yerində tanış olub



Naftalan Şəhər İcra Hakimiyyəti tərəfindən şəhərdə koronavirus pandemiyasının qarşısının alınması istiqamətində nəzarət tədbirləri davam etdirilir. Bu tədbirlər çərçivəsində banklarda, ticarət və iaşə obyektlərində və digər qapalı məkanlarda monitorinqlər aparılır. Operativ qərargahın qərar və tövsiyələrinin yerlərdə həyata keçirilməsinin icrası vəziyyəti yoxlanılır.

Şəhər rəhbəri Vüqar Novruzov karantin rejiminin tələblərinə riayət edilməsinin vəziyyəti ilə tez-tez yerində tanış olur və müvafiq tədbirlərin görülməsini daim nəzarətdə saxlayır. Bu məqsədlə növbəti dəfə şəhər ərazisində karantin rejiminin tələblərinin icrası vəziyyəti ilə bağlı reyd keçirilib, sakinlərlə profilaktik söhbətlər aparılıb, onlara özlərinin və yaxınlarının müəyyən edilmiş qayda və tövsiyələrə əməl edərək sağlamlıqlarını qorumalarının vacibliyi bildirilib.

Reyd zamanı bəzi ticarət və ictimai iaşə obyektlərində sanitar qaydaların pozulması, tibbi qoruyucu vasitələrdən istifadə edilməməsi və sosial məsafənin gözlənilmədiyi hallar müşahidə edilib. Xüsusi karantin rejiminin tələblərinin pozulduğu aşkarlanmış iki obyekt sahibinə xəbərdarlıq edilmiş, altı obyekt sahibinə isə aidiyyəti qurumlar tərəfindən protokol tərtib edilərək cərimə tətbiq olunmuşdur.

Qeyd edək ki, koronavirus pandemiyası ilə mübarizə çərçivəsində həyata keçirilən zəruri tədbirlər bundan sonra da davam etdiriləcək və tələblərə əməl etməyənlər barədə ən sərt tədbirlər görüləcək.

**Ülfət ƏLİYEV,**
**Naftalan şəhər İcra Hakimiyyəti başçısı aparatında informasiya təminatı və təhlil sektorunun müdiri**

# Naftalan şəhərində və kəndlərində mobil qruplar tərəfindən davamlı olaraq reydlər keçirilir



Naftalan şəhərində və şəhərin Qaşaltı Qaraqoyunlu və Qasımbəyli kəndlərində koronavirus infeksiyasının yayılmasının və onun törədə biləcəyi fəsadların qarşısının alınması məqsədi ilə kompleks tədbirlər davam etdirilir.

İnfeksiyaya qarşı həyata keçirilən profilaktik dezinfeksiya tədbirləri ilə yanaşı əhali arasında maarifləndirmə işlərinin gücləndirilməsi və sosial məsuliyyət tədbirləri də həyata keçirilir. Pandemiyaya qarşı mübarizə aparmaq üçün aidiyyəti strukturların əməkdaşlarından ibarət hər birində 4 nəfər olmaqla 5 mobil qrup fəaliyyət göstərir.

Mobil qrupların üzvləri tərəfindən müvafiq ərazi bölgüsü əsasında mütəmadi olaraq ticarət, ictimai-iaşə və xidmət obyektlərində, banklarda, həmçinin turizm obyektlərində əhalinin müəyyən olunmuş qaydalara və sanitar-epidemioloji tələblərə əməl edilməsinin, eləcə də dəfn mərasimlərində məhdud sayda insanların iştirak etməsinini vəziyyətini öyrənmək və lazımi tədbirlər görmək məqsədilə reydlər keçirilir, əhalinin sıx toplaşdığı ərazilərdə sakinlərlə fərdi qaydada hərtərəfli izahetmə işləri aparılır.

Həmçinin reyd keçirilən bütün obyektlərdə işçi heyətinə canlı təmas zamanı tənəffüs yollarını qoruyan fərdi vasitələrdən (maska, əlcək, spirtvə sair) istifadənin, sosial məsafənin saxlanılmasının zəruri olduğu bildirilir.

Reyd zamanı Nazirlər Kabinetinin Operativ Qərargahının tələblərinə zidd fəaliyyət göstərən obyekt sahiblərinə sonuncu dəfə xəbərdarlıq edilərək qanuna müvafiq olaraq müvafiq strukturlar tərəfindən inzibati qaydada tədbirlər görülüb.

**Tural MƏMMƏDOV,**
**Naftalan şəhər İcra Hakimiyyəti aşçsının 1 nömrəli SİAD üzrə nümayəndəsi**

# Azərbaycanda fəaliyyət göstərən Siyasi partiyalar Ermənistanın Azərbaycan sərhəddində törətdiyi qanlı cinayətini pisləyir



2020-ci il iyulun 12-də Ermənistan silahlı qüvvələrinin Azərbaycanın Tovuz rayonu istiqamətindəki sərhəd ərazilərinə xaincəsinə basqınından və ordumuzun düşmənə layiqli cavabından sonra Azərbaycanda əsl Ali Baş Komandan-xalq, ön və arxa cəbhə birliyi, vəhdəti yaşanır. Siyasi baxışlarından, yaşından, statusundan, məşğuliyyət növündən, cinsindən asılı olmayaraq Azərbaycan vətəndaşları ağır pandemiyanın törətdiyi çətinlikləri və məhrumiyyətləri unudaraq, mənfur düşmənin növbəti dəfə Vətən torpaqlarına göz dikdiyi zaman bir nəfər kimi Ali Baş Komandana, Silahlı Qüvvələrimizə dəstəklərini ifadə etmişlər. Ölkə ərazisində fəaliyyət göstərən siyasi partiyalar da bu prosesdən geri qalmamışlar, praktiki olaraq Azərbaycanın müstəqillik tarixində ilk dəfə olaraq müxtəlif proqramı, platforması, fərqli məqsədi və məramı olan siyasi partiyalar iqtidar partiyası ilə olan fikir ayrılığını, məsələlərə müxtəlif yanaşma tərzini bir yana qoyaraq, həmrəylik nümayiş etdirmiş və Ali Baş Komandanın yanında olduqlarını bəyan etmişlər. Çoxdan arzuladığımız, digər ölkələrin siyasət mədəniyyətində izlədiyimiz anın şahidi olduq. Azərbaycanda da dünənin siyasi rəqibləri Vətən təhlükədə olduğu anda rəqabəti unudub, eyni səngərin əsgərləri kimi təhlükəni dəf etmək üçün bir yumruq kimi birləşmişlər.

43 partiya sədrinin imzaladığı Birgə Bəyanatda birmənalı şəkildə bildirilir: "Biz, Azərbaycanın siyasi partiyaları Ali Baş Komandan, Prezident İlham Əliyevin ölkəmizin ərazi bütövlüyünün və əhalinin təhlükəsizliyinin təmin olunması, hər cür erməni fitnəsi və təxribatlarının qarşısının alınması istiqamətində həyata keçirdiyi siyasəti qətiyyətlə dəstəkləyir, onun ətrafında sıx birləşdiyimizi bəyan edirik. Xalqımızı həmrəyliyə, Vətənimizə qarşı uzanan qanlı erməni əllərini qətiyyətlə kəsib atmağa hər an hazır olmağa səsləyirik. Şərəfli tarixi olan Ordumuzla qürur duyur, onunla bir olduğumuzu ifadə edirik. Möhtərəm Prezidentimiz və Ali Baş Komandanımızı əmin edirik ki, hər birimiz Vətənimizin şərəfi və namusu yolunda onun istənilən tapşırığını hər an yerinə yetirməyə hazır olan müsəlləh əsgərik".

Siyasi Partiyaların birgə bəyanatından sonra Vətəndaş və İnkişaf partiyasının sədri Əli Əliyev, Respublikaçı Alternativ Partiyasının sədri İlqar Məmmədov, Azad Demokratlar Partiyasının sədri Sülhəddin Əkbər, Azərbaycan Xalq Partiyasının sədri Pənah Hüseyn ayrıca bəyanatlar verərək Vətənin düşmən təcavüzünə məruz qaldığı günlərdə Ali Baş Komandana və ordumuza dəstək olduqlarını demişlər.

Ordumuzun Tovuz rayonu istiqamətində düşmən hücumunun qarşısını alması, canlı qüvvələrini və texnikalarını məhv etməsi xalq tərəfindən coşqunluqla qarşılanmışdır. Xalq-ordu həmrəyliyi çərçivəsində döyüşçülərimizə dəstək məqsədilə çoxsaylı insan Şəhidlər xiyabanına gəlmişdir. Ancaq əfsuslar olsun ki, hər zamankı kimi onların arasına Azərbaycan Xalq Cəbhəsinin tör-töküntüləri girib, bu gözəl və nəcib addıma kölgə salmağa, qanunsuz əməllər törətməyə çalışmışlar. Buna baxmayaraq heç bir daxili və xarici siyasi güc, Azərbaycan dövlətinin qətiyyətliyini, gücünü, Ali Baş Komandan-xalq həmrəyliyini şübhəyə ala bilməz. Azərbaycan xalqı hər şeyi görür, qiymət verir. Azərbaycan dövləti də xalqı ilə birlikdədir, xalqını dinləyir, hər bir addımını onunla məsləhətləşir, gələcəyini onunla birlikdə planlaşdırır və həyata keçirir. Siyasi partiyalar milli həmrəylik nümayiş etdirərək Azərbaycan dövlətinin və Ali Baş Komandanın yanında olduqlarını birmənalı olaraq dilə gətirsələr də təəssüf ki, bəzi siyasi çevrələr bu təlatümlü günlərdə hadisələrə münasibət bildirməyərək kənardan müşahidə etməyə üstünlük vermişlər. Bu onların iç üzləridir, onların düşmənlə bir olduqlarını və xarici havadarlarının tapşırıqlarını yerinə yetirilməsi üçün dəridən qabıqdan çıxırlar.

**Kəmalə HÜSEYNOVA,**
**Naftalan şəhər İcra Hakimiyyəti başçısı aparatında yetkinlik yaşına çatmayanların işləri və hüquqlarının müdafiəsi üzrə komissiyanın məsul katibi**

# İşğalçılar tərəfindən dağıdılmış mülki və dövlət obyektlərimiz bərpa olunur




Cari ilin iyulun 12-dən etibarən Ermənistanın Silahlı qüvvələri Tovuz rayonu istiqamətində sərhədlərimizi xaincəsinə pozaraq ağır artilleriyadan atəş açdıqları üçün yüksək rütbəli hərbiçilərimiz şəhid olmuş və dinc əhali arasında itkilərə səbəb olmuşdu. Ermənilərin silahlardan və artilleriyadan atəş açması sayəsində həmin ərazidə 6 kənddə yaşayan mülki əhaliyə və dövlət əmlakına ziyan dəymişdir. Azərbaycan Respublikası Prezidenti cənab İlham Əliyevin 20 iyul 2020-ci il tarixli "Azərbaycan Respublikasının Tovuz rayonunu Ermənistan Respublikası Silahlı Qüvvələrinin intensiv atəşə tutması nəticəsində həmin kəndlərdə yaşayan mülki əhaliyə, dövlət əmlakına, o cümlədən infrastruktur obyektlərinə dəymiş ziyanın aradan qaldırılması ilə bağlı tədbirlər haqqında" Sərəncamı ilə yaradılmış komissiya mülki əhaliyə, dövlət əmlakına, o cümlədən infrastruktur obyektlərə dəymiş ziyanı müəyyənləşdirir. Komissiya öz işini başa çatdırdıqdan sonra Tovuz rayonunun ziyan dəymiş 6 kəndində - Ağdam, Əlibəyli, Dondar Quşçu, Vahidli, Yuxarı Öysüzlü və Aşağı Öysüzlü kəndlərində, o cümlədən hərbi hücum nəticəsində zərər vurulmuş obyektlərdə təmir bərpa işlərinə başlanacaqdır. Hazırda dəymiş ziyanın aradan qaldırılması üçün bu sərəncama uyğun olaraq bütün qüvvələr səfərbər olunmuşdur. Bu sərəncam bir daha dövlətin hər zaman vətəndaşın yanında olduğunu əyani sübut edir. Döyüşlərdə şəhid olanların ailələrinə göstərilən ehtiram ölkə vətəndaşlarının vətənpərvərlik hissini daha da gücləndirir.

Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti hörmətli Mehriban xanım Əliyevanın tapşırığına əsasən fondun nümayəndələri Tovuz rayonu istiqamətində döyüşlərdə şəhid olan hərbçilərin ailələri ilə görüşüblər. Heydər Əliyev Fondunun nümayəndələri Sumqayıt şəhərində general-mayor Polad Həşimovun və Bakı şəhərində polkovnik İlqar Mirzəyevin ailələrini ziyarət ediblər. Azərbaycan dövlətinin dəstəyi ilə yanaşı, Heydər Əliyev Fondu tərəfindən də hər zaman şəhid ailələrinə yüksək diqqət və qayğı göstərilir. Tovuz rayonu istiqamətlərdə şəhid olan hərbçilərin ailə üzvlərinin bütün qayğıları Mehriban Əliyevanın tapşırığına əsasən daim fondun nəzarətində olacaqdır. Qarşıdakı günlərdə fondun nümayəndələri Ağstafa, Tovuz, Qazax, İsmayıllı, Biləsuvar və Masallı rayonlarında şəhid ailələrinə baş çəkməyi davam etdirirlər.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin sərəncamı ilə 1997-ci il avqustun 2-dək ölkəmizin ərazi bütövlüyü uğrunda həlak olmuş, ölmüş və hərbi əməliyyatlarla əlaqədar xəbərsiz itkin düşdüyünə görə ölmüş hesab edilmiş hərbi qulluqçulara və daxili işlər orqanları əməkdaşlarına 11 min manat birdəfəlik ödəmə təyin edilmişdir. 2020-ci ilin iyulun 14-dək 12281 şəhidin 18 mindən çox vərəsəsinə birdəfəlik ödəmə verilmişdir. Dövlət başçısının ayırdığı vəsait hesabına şəhid ailələrinə və müharibə əlillərinə 7600-ə yaxın mənzil və fərdi yaşayış evi, müharibə əlillərinə 6900 avtomobil verilib.

2016-cı ilin Aprel döyüşləri zamanı mülki əhaliyə dəymiş ziyanın aradan qaldırılması məqsədilə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə dövlət büdcəsindən Ağdam və Tərtər rayonlarının hər birinə 3 milyon manat vəsait ayrılmışdır. Bu vəsaitlə Ermənistan Silahlı Qüvvələrinin iriçaplı silahlardan və artilleriya qurğularından açdıqları intensiv atəş nəticəsində Tərtər rayonunda dağılmış 4 ev yenidən tikilib, 8 ev bərpa olunub, 231 evdə cari təmir işləri aparılıb, 6 saylı tam orta məktəb və 120 şagird yerlik Qazyan kənd orta məktəbində əsaslə təmir işləri aparılmışdır. Ağdam rayonunda isə 5-i üçotaqlı, 3-ü dördotaqlı olmaqla 8 ev yenidən tikilmiş, 15 ev tamamilə bərpa olunmuş, 27 evdə əsaslı, 693 evdə cari təmir işlləri aparılmışdır.

2016-cı ilin Aprel döyüşlərindən sonra cənab Prezidentin yeni həyat bəxş etdiyi və "Böyük Qayıdış"ın rəmzinə çevrilən Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndində görülən işlər ordumuzu və xalqımızı bir daha qələbəyə səsləyir. Qısa zaman kəsiyində Cocuq Mərcanlının bərpası, mülki əhalinin və dövlət strukturlarının yerləşdirilməsi üçün tikilən fərdi yaşayış evləri, məktəb və uşaq bağçası binaları, elektrik qaz və su xəttlərinin çəkilməsi bir daha sübut edir ki, Azərbaycan dövləti daima xalqının yanındadır.

Tovuz rayonunun ərazisində erməni təxribatının qarşısını alan Azərbaycan Ordusu dəqiq və sərrast atəşlə onların çirkin əməllərini alt-üst etdi. Bununla da Azərbaycan Ordusu özünün şanlı tarixinin yeni bir səhifəsini yazdı. Azərbaycan Ordusunun bu qələbəsini dünyanın aparıcı dövlətləri, beynəlxalq təşkilatlar dəstəklədi, ermənilərin məkirli niyyətini, mülki əhaliyə və sərhədçilərə ağır artilleriyadan atəş açmalarını, mülki əhalinin və hərbçilərin ölümünə səbəb olan bu vandalizmi kəskin pislədilər. Ermənistan sərhəd boyunca terrorçuluqla məşğul olmalarının əsas səbəblərindən biri də Aprel və Günnüt əməliyyatlarında vurulan zərbənin qisasını almaqla yeni torpaqlar işğal etmək, Şərq-Qərb Nəqliyat dəhlizinə, neft-qaz boru kəmərlərinə zərər gətirmək, regionu yeni fəlakətlə üz-üzə qoymaq, sərhəd boyu üstünlüklər əldə etmək olmuşdur.

Azərbaycan vətəndaşlarının, qəhrəman Azərbaycan hərbiçilərinin arxasında güclü dövlətin dayanması bu günlərdə bir daha dünyaya bəyan oldu. Əminik ki, Ali Baş Komandanın rəhbərliyi ilə Azərbaycanın hərbi qüdrəti yüksələn xətlə inkişaf edəcək, sosial-iqtisadi və mədəni həyatda yeni zirvələr fəth olunacaq, ölkəmizin müstəqilliyi, azadlığı, insanların rifahı və ölkəmizin güclənməsi daim dövlətin nəzarətində olacaqdır.

**Elman ALIYEV,**
**Naftalan şəhər Heydər Əliyev Mərkəzinin direktoru**

# Şəhid ailələri və müharibə əlilləri daim dövlətin qayğısı ilə əhatə olunur

Möhtərəm Prezident cənab İlham Əliyevin 2018-ci il Prezident seçkisindən sonra imzaladığı ilk fərmanla 1997-ci il avqustun 2-dək ölkəmizin ərazi bütövlüyü uğrunda həlak olmuş, ölmüş və hərbi əməliyyatlarla əlaqədar xəbərsiz itkin düşdüyünə görə ölmüş hesab edilmiş hərbi qulluqçulara və daxili işlər orqanları əməkdaşlarına 11 min manat birdəfəlik ödəmə təyin edilmişdir. Möhtərəm Prezidentin bu Fərmanı ilə 12 mindən çox şəhidin 18 mindən çox vərəsəsinə birdəfəlik ödəmələr verilmişdir. Bu fərmandan öncə də dövlət başçısı şəhid ailələrinə və müharibə əlillərinə qayğı göstərilməsini ön plana çəkmişdir. Son illər dövlət başçısının sərəncamları ilə hər il Böyük Vətən Müharibəsinin ildönümündə BVM-si əlillərinə, iştirakçılarına və onlara bərabər tutulanlara birdəfəlik yardımlar verilməsi təmin edilmişdir. Ölkə başçısının ayırdığı vəsait hesabına son illər Respublikamızda şəhid ailələrinə və müharibə əlillərinə 8018 mənzil və fərdi ev verilib. Hər il şəhid ailələrinə və müharibə əlillərinə verilən mənzillərin sayı artmaqda davam edir. Əvvəlki illərdə onlara 500, 600, 700 mənzil verilirdisə 2019-cu ildə bu mənzillərin sayı 934-ə çatdırılmış və 2020-ci ildə isə 1500-ə çatdırılması nəzərdə tutulmuşdur.

Möhtərəm Prezident dövlətin iqtisadiyyatını daha da gücləndirilməsi istiqamətində apardığı siyasətin nəticəsidir ki, büdcəmizdə böyük potensial yaranır. Bu vəsaitlə də əsasən sosial siyasət həyata keçirilir. Məhz bu potensialın hesabına 2018-2019-cu illərdə 865 müharibə əlili avtomobillə təmin olunub, 2020-ci ilin ötən dövründə onlara 150 avtomobil verilib və ilin sonuna kimi 400 avtomobilin də verilməsi planlaşdırılıb. Ümumilikdə 6900 müharibə əlili avtomobillə təmin olunub. Dövlət büdcəsinin potensialı hesabına 2019-cu ildə şəhid ailələrinə, müharibə əlillərinə verilən müavinət 20 faiz, pensiyalar, əmək haqqlar dövlət büdcəsinin gəlirləri hesabına artırılıb. Ötən illər işsiz əhali ictimai işlərə cəlb edilib, 2020-ci ildə pandemiya dövründə 90 min vətəndaşımız ictimai işə cəlb olunub. Neftin qiyməti kəskin şəkildə azalsa da digər sahələrdə inkişaf tempi artmaqda davam etmişdir. Bu da imkan verir ki, büdcəmizdə ehtiyat vəsait yaransın və bu vəsaitlə də bütün sahələrdəki mövcud layihələr həyata keçirilsin.

Pandemiya dövründə dünya ölkələri kredit axtardığı zamanda Azərbaycan ÜST-na 10 milyon manat yardım verməsi, 30-a kimi ölkələrə humanitar yardım göstərməsi, pandemiyaya dəstək fonduna 20 milyon manat vəsait ödəməsi büdcəmizin inkişafının real təzahürüdür.

Lakin bütün bunlar Azərbaycan xalqını sevindirsə də düşmənlərimiz, o cümlədən daxili düşmənlərimiz xaos yaratmaq, yenə də torpaqlarımızın işğal olunması istəklərindən əl çəkmirlər. İyulun 12-də Ermənistanın təxribatı nəticəsində Tovuz rayonu istiqamətində dövlət sərhədlərinin pozulması hərbiçilərimizin və dinc əhalimizin şəhid olması xalqımızda bir daha səfərbər olmaq zərurəti yaratmışdır. Torpaqlarımızı yağı düşməndən qorumaq üçün silaha sarılmaq istəyi Azərbaycan xalqının mərdliyindən vətənpərvərliyindən xəbər vermişdir. Bu ərəfədə 50 min nəfərə yaxın Azərbaycan vətəndaşı Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin rayon və şəhər şöbələrinə vətəni qorumaq üçün müraciət etmişlər.

Azərbaycan Ordusu düşmənin mövqelərini, canlı qüvvəsini, texnikasını məhv etməsi xalqımızda böyük ruh yüksəkliyi yaratmışdır. Azərbaycan vətəndaşları bu qələbəni alqışlamaq üçün Şəhidlər Xiyabanında dinc aksiya keçirmişlər. Lakin Xalq cəbhəsinin tör-töküntülərinin aksiya iştirakçıları arasında təxribat aparması çox təəssüf doğurur. Dövlət başçısının pandemiya şəraitində keçirilən zirvə görüşlərində BMT Baş Assambleyasını Xüsusi Sessiyasının keçirilməsi təşəbbüsü 130 ölkə tərəfindən dəstəkləndiyi halda Ermənistan bu təşəbbüsü qəbul etməmişdir. Ölkəmizin qüdrətinin artması, beynəlxalq aləmdə qəbul edilməsi düşmənlərimizdə qıcıq hissi yaratmışdır və onlar öz təcavüzkar siyasətinin həyata keçirilməsinə cəhd göstərmişlər. Ermənistanın bu işğalçılıq siyasətinin qarşısı çox böyük şanlı qələbə ilə alındı. Onların KTMT-na müraciəti qəbul edilmədi. Bu beynəlxalq təşkilatların üzvü olan Qazağıstan, Qırğızıstan, Belarus Azərbaycanı dəstəkləməklə təcavüzkarın əməllərini pislədilər.

Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti hörmətli Mehriban xanım Əliyevanın tapşırığına əsasən fondun nümayəndələri Tovuz istiqamətində döyüşlərdə şəhid olan hərbçilərin ailələri ilə görüşüblər. Heydər Əliyev Fondunun nümayəndələri Sumqayıt şəhərində general-mayor Polad Həşimovun və Bakı şəhərində polkovnik İlqar Mirzəyevin ailələrini ziyarət ediblər. Azərbaycan dövlətinin dəstəyi ilə yanaşı, Heydər Əliyev Fondu tərəfindən də hər zaman şəhid ailələrinə yüksək diqqət göstərilir. Tovuz rayonu istiqamətlərdə şəhid olan hərbçilərin ailə üzvlərinin bütün qayğılarının Mehriban Əliyevanın tapşırığına əsasən daim fondun nəzarətində olacaqdır. Qarşıdakı günlərdə fondun nümayəndələri Ağstafa, Tovuz, Qazax, İsmayıllı, Biləsuvar və Masallı rayonlarında şəhid ailələrinə baş çəkəcəklər.

Azərbaycan dövlətinin başçısı, Ali Baş Komandanımız bütün beynəlxalq təşkilatlarla apardığı danışıqlarda Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin əsaslı şəkildə həll edilməsinə və xalqımızın işğal olunmuş ərazilərə qayıtmasına çalışır və buna nail olacaqdır. Azərbaycanın suverenliyi, ərazi bütövlüyü tam təmin olunmalı, yurd-yuvasından müvəqqəti köçürülənlər öz doğma torpaqlarına qayıtmalıdır. Bütün danışıqların başlıca qayəsi bundan ibarətdir.

**Tural MƏMMƏDOV,**
**Naftalan şəhər İcra Hakimiyyəti başçsının 1 nömrəli SİAD üzrə nümayəndəsi**

# Prezidentimiz şəhid ailələrinə və müharibə əlillərinə daim qayğı göstərir

Dövlət başçısının sərən- camları ilə ayrılmış vəsait hesabına 8 mindən çox şəhid ailəsi, müharibə əlilləri mənzillərlə təmin olunub, müharibə əlillərinə 7 minə yaxın avtomobil verilib. 2020-ci ildə 7 mindən çox məcburi köçkün ailələrinin mənzillə təmin olunması nəzərdə tutulub. Pandemiya dövründə yeni modul tipli xəstəxanalar tikilib, xarici ölkələrdən xəstələrin müalicəsi üçün həkimlər və mütəxəssilər dəvət edilib.

Ümummilli liderin 1993-cü ildə siyasi hakimiyyətə qayıdışı ölkəmizin müstəqil fəaliyyətinə çox böyük təkan verib. 1994-cü ildə "Əsrin müqaviləsi"nin imzalanması ilə iqtisadiyyatımız inkişaf edib, ordu quruculuğu başlayıb, güclü və intizamlı ordu yaranıb. Təməli 1993-cü ildə qoyulmuş bu inkişaf yolu sürətlə davam edir. Ordumuzun gücü və qüdrəti artdığına görə düşmənin təxribatlarının qarşısı mərdliklə alınır, sərhədlərimizi pozanların hərbi obyektləri dağıdılır, onlarla canlı qüvvələri məhv edilir. İyul ayının 12-də Tovuz rayonu istiqa- mətində sərhədlərimizin pozulmasının qarşısı mərdliklə alındı. Düşmən layiqli cavabını aldıqdan sonra dərhal KTMT-na müraciət etdi, bu təşkilatdan Azərbaycanı qınayan bəyanat verməsini tələb etdi. Ermənistan hakimiyyətinin bu cəhdi də baş tutmadı. KTMT-nin üzvü olan Qazaxıstan, Qırğızıstan, Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurası, Qoşulmama Hərəkatı, 57 ölkəni birləşdirən İslam Əməkdaşlıq Təşkilatı Azərbaycanı dəstəkləməsi barədə bəyanat verdi. Bu hadisələr zamanı çox böyük dəstək Türkiyədən gəldi. Türkiyənin Prezidenti, Müdafiə naziri, Xarici İşlər naziri, Parlament üzvləri, İctimai xadimləri Azərbaycanın haqq işini dəstəklədi.

Bütün bu məsələlər bir daha onu göstərir ki, Azərbaycan həm beynəlxalq aləmdə, həm də ölkə daxilində, o cümlədən mənfur düşmənlə mübarizədə çox böyük gücə çevrilib. Azərbaycan xalqı tam əmindir ki, Ali Baş Komandanın ordu quruculuğu siyasəti uğurla inkişaf etdikcə ölkəmizin suverenliyi, ərazi bütövlüyü tam təmin ediləcəkdir. Azərbaycan vətəndaşları işğal olunmuş torpaqlara qayıdacaqdır. Azərbaycan üçün bir nömrəli məsələ - Ermənistan - Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin öz həllini tapmasıdır.



Xalqımız cənab Prezidentin rəhbərliyi ilə bu tarixi sınaqdan şərəflə çıxacağına, şərəfli bir Tarixin yazılacağı günün yaxın zamanda baş verəcəyinə tam əmindir.

**Bənövşə ƏHMƏDOVA,**
**Naftalan şəhər sakini**

# Naftalanda gənclərlə video konfrans keçirildi




Naftalan Şəhər İcra Hakimiyyəti, YAP Naftalan Şəhər Təşkilatı və Naftalan Şəhər Gənclər və İdman İdarəsinin birgə təşkilatçılığı ilə şəhər gənclərində vətənpərvərlik hissinin aşılanması məqsədilə "Naftalan gənclərinin vətən sevgisi" mövzusunda onlayn video konfrans keçirilib. Konfransda şəhər İcra Hakimiyyəti başçısının müavini Arzu Məmmədov, YAP Naftalan Şəhər Təşkilatının sədri Hatəm Qocayev, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət xidmətinin Goranboy rayon şöbəsinin bölmə rəisi Vüsal Məhərrəmov, şəhər Gənclər və İdman İdarəsinin rəisi Samir Qocayev və fəal gənclər iştirak edib.

Onlayn konfransı giriş sözü ilə açan ŞİHB-nin müavini A.Məmmədov çıxış edərək gəncləri bir daha vətənpərvər olmağa çağırıb. Həmçinin Ali Baş Komandan cənab İlham Əliyevin başçılığı altında ordu quruculuğu sahəsində görülən işlər barədə və naftalanlıların, Naftalanlı gənclərin Vətənin müdafiəsində həmişə fəal olduqlarını, Ali Baş Komandanın əmri olarsa, Vətənin müdafiəsinə hamılıqla qalxacağını deyib. Sonra YAP Naftalan Şəhər Təşkilatının sədri H. Qocayev çıxış edərək ölkə başçısı, Ali Baş komandan cənab İlham Əliyevin apardığı daxili və xarici siyasətdən söz açaraq hər zamankı kimi gəncləri Dövlətin və Dövlət başçısının ətrafında sıx birləşməyə çağırıb.

Digər çıxışçılar, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət xidmətinin Goranboy rayon şöbəsinin bölməsinin rəisi V. Məhərrəmov və şəhər Gənclər və İdman İdarəsinin rəisi Samir Qocayev son zamanlar gənclərin könüllü olaraq hərbi xidmətə getməklə bağlı çoxsaylı müraciətlərindən söz açıb və gəncləri sosial şəbəkələrdə vətənpərvərliklə bağlı aktiv olmağa, dezinformasiyaları paylaşmamağa, düşmənə hərbi sirri verməmək məqsədilə sosial şəbəkələrdə hərbi hissələrə yaxın ərazilərin, hərbi texnikaların və hərbiçilərin hərəkət istiqamətini bildirən fotoları paylaşmamağa səsləyiblər.

Sonda şəhərin ictimai-siyasi həyatında aktiv olan gənclərlə birlikdə mövzu ətrafında diskussiya aparılıb.

**Samir QOCAYEV,**
**Naftalan şəhər Gənclər və İdman İdarəsinin rəisi**

# Azərbaycanın su təhlükəsizliyi etibarlı şəkildə təmin edilib

Ölkəmiz məqsədyönlü siyasət yürüdən, yalnız öz daxili imkanlarına arxalanaraq uğurla inkişaf edən, dünya miqyasında nüfuzu olan bir dövlətdir. İnkişaf proqramlarının icrası bölgələrimizin tərəqqisinə, əhalinin sosial-rifahının yüksəldilməsinə, ümumilikdə ölkəmizin qüdrətlənməsinə mühüm töhfələr verib. Son illərdə bölgələrimizin mənzərəsi nəzərəçarpacaq dərəcədə dəyişib. Şəhər və rayon mərkəzləri ilə yanaşı, kənd və qəsəbələrin böyüməsi, abadlaşması, yeni istehsal, emal və xidmət müəssisələrinin fəaliyyətə başlaması regionlarda həyat səviyyəsinin yüksəlməsindən xəbər verir. Möhtərəm Prezident cənab İlham Əliyevin Azərbaycan vətəndaşlarının fasiləsiz və keyfiyyətli içməli su ilə təmin edilməsi barədə tapşırıqlarına uyğun olaraq mühüm layihələr icra edilib. İçməli suyun keyfiyyəti məsələsi hazırda nəinki respublikamızda, hətta qlobal məkanda aktuallıq kəsb edir. Su təchizatının iki əsas məqsədi var - əhalinin içməli suya əlçatanlığına nail olmaq və keyfiyyətli su ilə təminat. Əhalinin içməli suya çıxışının təmin eilməsi istiqa- mətində mühüm işlər görülür. Suyun keyfiyyətinə gəlincə, bu sahədə də son illər xeyli işlər görülüb. Əminliklə demək olar ki, bu gün istər Bakı şəhəri və Abşeron yarımadası, istərsə də regionlarda əhaliyə verilən içməli sular qüvvədə olan standartlara tam uyğundur. İçməli suyun keyfiyyət göstəriciləri daim nəzarətdə saxlanılır, eyni zamanda Səhiyyə Nazirliyi içməli suyun keyfiyyətinə dövlət nəzarətini həyata keçirir.

Bütün infrastruktur layihələrin ardıcıl şəkildə icrası nəticəsində ölkəmiz sürətlə inkişaf edir, enerji sektoruna qoyulan vəsait, bu sahədə aparılan müasirləşmə imkan yaradır ki, biz özümüzü uzun müddət ərzində elektrik enerjisi ilə təmin edək. Əlavə generasiya güclərimiz nəticəsində ixrac imkanlarımız da yaranır, 30-dan çox elektrik stansiyası enerji təhlükəsizliyini təmin edir. Ölkədə qazlaşdırma 96 faizə çatıb. Bu, dünya miqyasında ən yüksək göstəricilərdən biridir. Nəqliyyat infrastrukturu böyük dərəcədə müasirləşib. Davos Ümumdünya İqtisadi Forumunun hesabatına əsasən hava nəqliyyatının səmərəliliyinə görə Azərbaycan dünyada 11-ci, dəmir yollarının səmərəliliyinə görə isə 12-ci yerdədir. Avtomobil yollarının keyfiyyətinə görə Azərbaycan 27-ci yerdədir. Bütövlükdə infrastrukturla bağlı olan vəziyyətə görə Azərbaycan dünya miqyasında 34-cü yerdədir. Bu infrastruktur layihələri arasında içməli su və meliorasiya layihələri öz yerini tapıbdır. 2004-cü ildə Azərbaycanda içməli su ilə təminat 40 faiz səviyyəsində idi. Bu gün isə bu rəqəm 70 faizə çatıbdır. Bakı şəhərində içməli suyu davamlı şəkildə alan əhalinin sayı 29 faiz idi. Bu gün bu rəqəm təxminən 82 faizə çatıbdır. Regionlarda isə əhalinin içməli su ilə əhatə dairəsi cəmi 9 faiz idi. Bu gün bu rəqəm 63 faizdir. Son illərdə Azərbaycanda nəhəng su layihələri vəziyyəti tamamilə müsbət tərəfə dəyişib, onların arasında Oğuz-Qəbələ-Bakı su kəməri, Taxtakörpü su anbarının tikintisi tarixi layihədir. Çünki bu anbarın su tutumu kifayət qədər böyükdür - 270 milyon kubmetr. Buradan su təqribən 30 min hektar suvarılmayan torpaqlara su verilir. Digər böyük layihə Ceyranbatan su anbarının yenidən qurulması və müasir təmizləyici qurğuların inşa edilməsidir. Şəmkirçay su anbarı da əhəmiyyətlidir, anbarın su tutumu 165 milyon kubmetrdir və qərb zonasının bir neçə rayonu bu imkanlardan faydalanır. Cənub zonasında yerləşən Göytəpə və Tovuzçay su anbarları da inşa edilib. Son 15 il ərzində yaradılmış böyük su anbarlarının həcmi 470 milyon kubmetrdir. İçməli su layihələrinə, meliorasiya layihələrinə böyük vəsait qoyulur. İndi müasir texnologiyalar var. Həmçinin boruların istismar müddətinin uzadılması üçün yeni texnologiyalar var, onlardan istifadə etmək lazımdır. 22 kanalın yenidən qurulması nəzərdə tutulur. Bunun nəticəsində təqribən 300 min hektara yaxın əkin sahəsinin su ilə təminatını tam həll ediləcək.

Cənab Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən və Azərbaycan vətəndaşlarının sosial rifahının yüksəlməsinə hesablanmış içməli su və kanalizasiya layihələrinin vaxtında və keyfiyyətlə icrası memarı Ulu öndər Heydər Əliyev olan sosial siyasətə öz töhfəsini verəcəkdir.

**Kəmalə HÜSEYNOVA,**
**Naftalan şəhər İcra Hakimiyyəti başçısı aparatında yetkinlik yaşına çatmayanların işləri və hüquqlarının müdafiəsi üzrə komissiyanın məsul katibi**

# Naftalanda aztəminatlı ailələrə Azərbaycan Qızıl Aypara Cəmiyyəti tərəfindən "Procter&Gamble" məhsulları paylanılıb



Xüsusi karantin rejimi dövründə xüsusi yardıma və qayğıya ehtiyacı olan aztəminatlı ailələrə və təqaüdçülərə AzQAC tərəfindən "Procter&Gamble" şirkətinin dəstəyi ilə gigyenik vasitələrdən ibarət bağlamalar paylanılıb.

Bağlamalar Şəhər İcra Hakimiyyətinin və AzQAC-ın Goranboy-Naftalan şəhər bölməsinin əməkdaşları tərəfindən qeyd olunan kateqoriyadan olan 35 ailənin ünvanına çatdırılıb.

Vətəndaşlar göstərilən diqqət və qayğıya görə möhtərəm cənab Prezident İlham Əliyevə və Birinci Vitse-Prezident hörmətli Mehriban xanım Əliyevaya dərin minnətdarlıqlarını bildiriblər.

**REDAKTORDAN**

# Naftalanda imtahan keçiriləcək məktəbdə dezinfeksiya və təmizlik işləri aparılıb

İyulun 10-da Dövlət İmtahan Mərkəzi (DİM) tərəfindən sərtləşdirilmiş karantin rejimi tətbiq olunmayan şəhər və rayonlarda əvvəlki illərin məzunları üçün I-IV ixtisas qrupları üzrə ali təhsil müəssisələrinə qəbul imtahanının 1-ci mərhələsi, həmçinin V ixtisas qrupu və tam (11 illik) orta təhsil bazasında orta ixtisas təhsili müəssisələrinə qəbul imtahanı keçiriləcək.

İmtahanlar sərtləşdirilmiş karantin rejimi tətbiq olunmayan 41 şəhər və rayonda - Ağdaş, Göyçay, Qazax, Qobustan, Qusar, Ağstafa, Ağsu, Kürdəmir, Qəbələ, Şabran, Ağdam, Beyləqan, Gədəbəy, Hacıqabul, Lerik, Sabirabad, Salyan, Tovuz, Astara, Biləsuvar, Füzuli, İmişli, Neftçala, Şəmkir, Tərtər, Yardımlı, İsmayıllı, Qax, Ucar, Xızı, Zaqatala, Balakən, Oğuz, Quba, Şamaxı, Zərdab, Ağcabədi, Daşkəsən, Şirvan, Naftalan, Saatlıda təşkil olunacaq.

Naftalan şəhərində imtahanların keçirləcəyi, şəhər S.Vurğun adına 2 saylı tam orta məktəbdə bir sıra profilaktik tədbirlər həyata keçirilib, sanitar qovşaqlar təmir edilib, dezinfeksiya və təmizlik işləri aparılıb, şagirdlərin imtahana buraxılış zamanı toplaşacağı yerlərdə sosial izolyasiya qaydalarına əməl etməsi üçün 2 metrlik ara məsafəsi nişanları çəkilib.

**REDAKTORDAN**






# Naftalanda mütəmadi olaraq dezinfeksiya işləri həyata keçirilir



Nazirlər Kabineti yanında Operativ Qərargahın tələb və tövsiyələrinə uyğun olaraq kurort şəhəri Naftalanda koronavirus infeksiyasının yayılmasının qarşısının alınması və bu sahədə aparılan müvafiq profilaktik tədbirlərin effektivliyinin yüksəldilməsi məqsədinə yönəldilmiş qabaqlayıcı tədbirlər davam etdirilir. Şəhər ərazisində sanitar-gigiyenik vəziyyət ciddi nəzarətdə saxlanılaraq təxirəsalınmaz işlər görülür.

Şəhərin küçə, prospekt və yolları texnikalar vasitəsilə dezinfeksiyaedici kimyəvi məhlulla növbəti dəfə yuyulub. Çoxmənzilli yaşayış binalarının ümumi istifadə yerlərində, binaların həyətindəki söhbətgahlarda, parklarda, ticarət və xidmət obyektlərində, ödəniş terminalları və bankomatlar olan yerlərdə dezinfeksiya işləri aparılıb.

Qeyd edək ki, şəhər ərazisində ümumi sanitar-gigiyenik vəziyyət nəzarətdə saxlanılır və mütəmadi olaraq dezinfeksiya işləri aparılır.

Həmçinin infeksiyaya qarşı həyata keçirilən profilaktik dezinfeksiya tədbirləri ilə bərabər əhali arasında maarifləndirmə işlərinin gücləndirilməsi və sosial məsuliyyət tədbirlərinin artırılması istiqamətində də işlər davam etdirilir.

**Ülfət ƏLİYEV,**
**Naftalan şəhər İcra Hakimiyyəti başçısı aparatında informasiya təminatı və təhlil sektorunun müdiri**

# Naftalanda Ərazi Vergilər Baş İdarəsinin əməkdaşları ilə birgə reydlər davam etdirilir



Naftalan Şəhər İcra Hakimiyyətinin və 12 saylı Ərazi Vergilər Baş İdarəsinin əməkdaşlarının birgə təşkilatçılığı ilə şəhər ərazisində fəaliyyət göstərən ictimai iaşə, ticarət və digər sahibkarlıq subyektlərində növbəti reyd keçirilib, sahibkarlarla profilaktik söhbətlər aparılıb, karantin rejimi qaydaları izah olunub və ciddi xəbərdarlıq edilib.

Reyd zamanı karantin rejimi qaydalarını pozduğuna görə bir obyekt sahibinə inzibati Xətalar Məcəlləsinin müvafiq maddəsi ilə protokol tərtib edilərək cərimə tətbiq olunub.

Koronavirus pandemiyası ilə mübarizə çərçivəsində həyata keçirilən zəruri tədbirlər bundan sonra da davam etdiriləcək.

**Şamxal HÜMBƏTOV,**
**Naftalan şəhər İcra Hakimiyyəti başçısı aparatında sosial-iqtisadi inkişafın təhlili və proqnozlaşdırılması şöbəsində baş məsləhətçi**

# Naftalanda Qida Təhlükəsizliyi Agentliyinin nümayəndələri ilə birgə reydlər davam etdirilir



Naftalanda koronavirus infeksiyasına qarşı həyata keçirilən profilaktik dezinfeksiya tədbirləri ilə yanaşı davamlı olaraq maarifləndirmə işlərinin gücləndirilməsi, sosial məsuliyyət və qaydalara riayət olunmasının vəziyyəti ilə bağlı tədbirlər həyata keçirilir.

Şəhər ərazisində pandemiyaya qarşı mübarizə aparmaq üçün hər birində 4 nəfər olmaqla aidiyyəti strukturların əməkdaşlarından ibarət 5 mobil qrup fəaliyyət göstərir. Mobil qrupların üzvləri tərəfindən müvafiq ərazi bölgüsü əsasında mütəmadi olaraq ticarət, ictimai-iaşə və xidmət obyektlərində, banklarda, həmçinin turizm obyektlərində əhalinin müəyyən olunmuş qaydalara və sanitar-epidemioloji tələblərə əməl etmələrinin vəziyyətini öyrənmək və lazımi tədbirlər görmək məqsədilə reydlər keçirilir.

Bu çərçivədə növbəti reyd Nazirlər Kabinetinin qərarı ilə təsdiq edilmiş koronavirusun (COVID-19) profilaktikasına dair metodiki göstərişlərin icrasına nəzarət məqsədilə Şəhər İcra Hakimiyyəti və Qida Təhlükəsizliyi Agentliyinin (AQTA) Gəncə Regional bölməsinin nümayəndələri ilə birgə ticarət, ictimai iaşə və şəhərdə fəaliyyət göstərən turizm obyektlərində həyata keçirilib. Sahibkarlıq subyektlərinə qida təhlükəsizliyi sahəsində qanunvericiliyin tələbləri izah edilib, icrası məcburi göstərişlər və maarifləndirici tövsiyələr verilib.

Reyd keçirilən obyektlərdən "Şəfa Vannaları 2" MMC-də Nazirlər Kabinetinin qərarı ilə təsdiq edilmiş metodiki göstərişlərin tələblərindən irəli gələn bir sıra qaydalara əməl olunmaması və kobud şəkildə pozulması faktları aşkarlanıb. Aşkarlanmış faktlarla bağlı sözügedən MMC barədə qanunvericiliyin tələbləri çərçivəsində inzibati tədbirlər görülüb.

**Şamxal HÜMBƏTOV,**
**Naftalan şəhər İcra Hakimiyyəti başçısı aparatında sosial-iqtisadi inkişafın təhlili və proqnozlaşdırılması şöbəsində baş məsləhətçi**

# Naftalan şəhəri üzrə mal-qaranın sayı və heyvandarlıq məhsullarının istehsalı haqqında Təhlil məruzə

Şəhər təsərrüfatlarında 476 baş iribuynuzlu mal qara, 247 baş ana mal, 2292 baş qoyun-keçi mövcuddur. 2020-ci ilin yanvar-iyun ayları üzrə mal-qara və qoyun-keçilərinbaş sayı 2019-cu ilin müvafiq dövrü ilə müqayisəli şəkildə aşağıdakı cədvəldə verilmişdir.

baş sayı

| | 2020-ci ilin yanvar-iyun aylarında | 2019-cu ilin yanvar-iyun aylarında | Fərq +,- |
|---|---|---|---|
| İribuynuzlu mal-qara | 476 | 445 | 31 |
| o cümlədən: inək və camışlar | 247 | 247 | 0 |
| Qoyun və keçi | 2292 | 2250 | 42 |




Cədvəldən göründüyü kimi iribuynuzlu mal-qaranın baş sayında 31 baş, qoyun və keçilərin baş sayında isə 42 baş artımlar müşahidə olunmuşdur. İnək və camışların baş sayı isə əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə dəyişməz olaraq qalmışdır.

2020-ci ilin yanvar-iyun aylarında Naftalan şəhərinin bütün təsərrüfat kateqoriyaları üzrə təsərrüfatlarında ət istehsalı 1305 sentner, süd istehsalı 1214 sentner, yumurta istehsalı 71 min ədəd, yun istehsalı isə 52 sentner olmuşdur. 2019-cu ilin müvafiq dövrü ilə müqayisədə ət istehsalı 83,3 faiz artmış, süd istehsalı 4,9 faiz, yumurta istehsalı isə 18,4 faiz azalmışdır.

| S/s | Məhsulun adı | 2020-ci il yanvar-iyun ayları | 2019-cu il yanvar-iyun ayları | 2019-cu ilin müvafiq dövrünə nisbətən, faizlə |
|---|---|---|---|---|
| 1 | Ət (diri çəkidə), sentner | 1305 | 712 | 183.3 |
| 2 | Süd (fiziki çəkidə), sentner | 1214 | 1277 | 95.1 |
| 3 | Yumurta, min ədəd | 71 | 87 | 81.6 |
| 4 | Yun, (fiziki çəkidə), sentner | 52 | 52 | 100.0 |

**Elcan BAĞIROV,**
**Naftalan şəhər Statistika İdarəsinin rəis s.m.i.e:**

# İTMİŞDİR

Naftalan şəhər sakini, Əliyeva Məhluqə Musa qızına məxsus JN-150, kod:50900158 nömrəli torpağa mülkiyyət hüququna dair dövlət aktı itdiyi üçün etibarsız sayılır.

REDAKTOR:
Əliyeva Aytən Həbib qızı

Qəzet 1992-ci ilin fevral ayından nəşr edilir

Qəzet ayda bir dəfə çıxır

Ünvan: Naftalan şəhəri, Heydər Əliyev prospekti 77.
Telefon: (022) 352-14-55
Naftalan@mail.az

Qəzet "Mingəçevir Poliqrafiya Müəssisəsi" MMC-də ofset üsulu ilə çap edilmişdir.
Dizayner: Rübabə Mustafayeva

Müəllifin mövqeyi ilə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər
Tiraj: 500